**İş № 1(103)-N\2019**

**Q Ə R A R**

**AA.GG.2019-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyasının **hakimləri** - Murquzov İlqar Mustafa oğlunun sədrliyi və məruzəsi, Əhmədov X.X.X Hüseyn oğlu və Məmmədov Habil Çingiz oğlundan ibarət tərkibdə, məhkəmə iclasının katibi – Sultanova-Məmmədova Ayşən Ramiz qızının, Dövlət ittihamçısı-Azərbaycan Respublikası Baş prokurorluğu Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya və Kassasiya instansiyası məhkəmələrində Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Mahmudov Kamran Fikrət oğlunun, məhkum X.X.X və müdafiəçisi-Bakı şəhəri, 17 saylı Vəkil bürosunun vəkili X.X.Xova Sevinc Eldar qızının iştirakları ilə

**Bakı Ağır Cinayətlər Məhkəməsinin** (sədrlik edən hakim: **Mirzə Xankişiyev**)

N fevral N-ci il tarixdə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda anadan olmuş, Azərbaycan Respublikası vətəndaşı, orta təhsilli, subay, məhkum olunmamış, N qeydiyyatda olan və yaşamış, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında saxlanılan **X.X.Xnun** barəsində olan

**19 noyabr 2018-ci il tarixli hökmündən** məhkum **X.X.Xnun** özü və onun müdafiəçisi **Salmanov Elnur Nizami oğlu** tərəfindən verilmiş **apellyasiya şikayətlərinə** Bakı Apellyasiya Məhkəməsinin binasında **açıq** məhkəmə iclasında baxaraq

**m ü ə y y ə n e t d i :**

Bakı Ağır Cinayətlər Məhkəməsinin **19 noyabr 2018-ci il tarixli hökmü** ilə **X.X.X** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **234.4.3-cü maddəsi** ilə təqsirli bilinib, cəzasını **ümumi rejimli** cəzaçəkmə müəssisəsində çəkməklə və cəzasının əvvəli **18 mart 2018-ci il tarixdən** hesablanmaqla **07 (yeddi) il müddətinə** azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **93.1.2-ci maddəsinin** tələblərinə əsasən, ona **narkomaniya xəstəliyindən** məcburi müalicə təyin edilmişdir.

Məhkəmənin **hökmünə** əsasən **X.X.X** satış məqsədi ilə qanunsuz olaraq istintaqa məlum olmayan vaxtda və mənbədən təmiz çəkisi **12 kq 250 qram** təşkil edən bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda narkotik vasitə qurudulmuş marixuana əldə edib bir ədəd naxışlı sintetik çantada qablaşdıraraq əlində saxlamaqla Bakı şəhəri Səbail rayonu «Bayıl Arena» stadionunun yaxınlığında Nesterov küçəsi 05 saylı ünvanın qarşısına kimi daşımış və 18 mart 2018-ci ildə saat 06:15 radələrində həmin ünvanda Bakı şəhəri Səbail rayon polis idarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları tərəfindən saxlanılaraq rayon polis idarəsinin inzibati binasına gətirilmiş və saat 07:05 radələrində onun üzərinə və ona məxsus əşyalara baxış keçirilərkən, əlində olan bir ədəd naxışlı sintetik çantada qablaşdırılmış halda xalis çəkisi **12 kq 250 qram** təşkil edən həmin bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda narkotik vasitə qurudulmuş marixuana aşkar olunaraq götürülmüşdür.

Məhkəmənin **hökmündən** narazı qalan məhkum **X.X.X** apellyasiya şikayəti verərək, özünü cinayətin törədilməsində təqsirli bilmədiyindən, hökmdən narazı qaldığını göstərməklə, hökmün ləğv olumasını və barəsində bəraət hökmünün çıxarılmasını xahiş etmişdir.

Məhkəmənin hökmü ilə razılaşmayan məhkum **X.X.Xnun** müdafiəçisi **Salmanov Elnur Nizami oğlu** apellyasiya şikayəti verərək, müdafiə etdiyi şəxsin ittiham olunduğu cinayət əməli birinci instansiya məhkəməsində araşdınlmış sübutlarla təsdiq edilmədiyindən, onun barəsində bəraət hökmünun qəbul olunması barədə qərar çıxarılmasını xahiş etmişdir.

**Apellyasiya şikayəti** onunla əsaslandırılmışdır ki, birinci instansiya məhkəməsinin hökmü qanunsuz, əsassız və ədalətsizdir. Belə ki, məhkəmə iclasında müdafiə etdiyi şəxs elan olunmuş ittihamda özünü təqsirli bilməyərək ifadəsində göstarmişdir ki, verilmiş ittihamla heç cürə razı deyil və həmin narkotik vasitəyə heç bir aidiyyəti yoxdur, heç vaxt narkotik vasitələrin satışı ilə məşğul olmamış və narkotik vasitədən istifadə etməmiş, fəhləlik etməklə özünü dolandırır. Həmin tarixdə Binəqədi rayonunda N.N.Nnın işlətdiyi kafedə olaraq kafenin işlərini görmüş, bunun müqabilində kafeni işlədən N.N.N ona yeməkvəyatmağa yer vermişdir. Həbsdən bir gün əvvəl kafedə olarkən əvvəllər tanıdığı "N.N.N" ləqəbli şəxs kafeyə gəlib Qax rayonunda iş olduğunu və işləmək üçün getmələrini ona təklif etdikdə, çörək pulu qazanmaq üçün razılaşaraq onunla getmək qərarına gəlmiş, həmin şəxs onu iş adı ilə kafedən çıxarmış, ancaq onunla rayona getmədən Bayıl qəsəbəsində olarkən polis əməkdaşları yaxınlaşaraq onu həbs etmişlər, "N.N.N" ləqəbli şəxsin həmin yerdən necə yoxa çıxdığından xəbəri olmamışdır. Qeyd olunan narkotik vasitədən onun xəbəri olmamış və narkotik vasitə ona məxsus deyildir. Müdafiə etdiyi şəxsə qarşı irəli sürülmüş ittiham məhkəmədə sübuta yetirilməmişdir. Həsən Səfərov polis tərəfından təşkil olunmaqla planlı şəkildə həbs olunduğuna görə həmin polis əməkdaşlarının və onlar tərəfindən işə cəlb edilən hal şahidlərinin məhkəmədə onun əleyhinə ifadə verməkləri normal haldır. Onlar öz etdikləri qanunsuzluqları etiraf edib özlərini ifşa etməli deyil. Bundan əlavə iş üzrə şahid qismində dindirilmiş polis əməkdaşından birinin hakimin "Qax rayonuna nə məqsədlə getmişdiniz?" sualına "şəkil çəkdirməyə" cavabını verməsi müdafiə etdiyi şəxsin əleyhinə ifadə verən polis əməkdaşların qeyri-peşəkarlığındanvə prosessual qanunvericiliyindən məlumatlarının olmamasından xəbər verir və məhkəmə də həmin şahidlərin əvvəlcədən məqsədli şəkildə əzbərlənmiş ifadələrini sübut kimi qəbul edib heç bir günahı olmayan şəxsi ağır ittihamla məhkum etmişdir. Bundan başqa iş üzrə məhkəmədə dindirilmiş şahidAkifəHüseynovanın ifadəsiilə HəsənSəfərovun ifadəsində göstərilən xüsusatlar bir daha öz təsdiqini tapmışdır. Müdafiə etdiyi şəxsin əməlinin Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə tövsif edilməsi Cinayət Prosessual Məcəlləsinin145 və 146-cı maddələrinin tələblərinə uyğun deyildir. Həmin maddələrə əsasən, hər bir sübut mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi üzrə qiymətləndirilməli, toplanmış sübutlann məcmusuna isə ittihamın həlliüçün kifayət etməsinə əsasən qiymət verilməlidir. Təhqiqatçı, müstəntiq, prokuror, və yaxud hakim qanunu və vicdanı rəhbər tutub sübutların məcmusuna hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamı ilə sübutları qiymətləndirməlidirlər. İttihamın sübut olunmasında yaranan şübhələri aradan qaldırmaq mümkün olmadıqda, onlar şübhəli və təqsirləndirilən şəxsin xeyrinə təfsir edilir. Məhkəmədə tədqiq edilmiş sübutlar əsasında X.X.Xun əməlinin Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə yekun nəticəyə gəlməyə imkan verməditi halda ittiham hökmü çıxarmışdır. Nəticədə, CPM-nin 21-ci maddəsində təsbit edilmiş təqsirsizlik prezumpsiyası pozulmuşdur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin **397-ci maddəsinin** tələblərinə əsasən, **apellyasiya məhkəməsi** birinci instansiya məhkəməsinin işin faktiki hallarının müəyyən edilməsi, cinayət qanunu və bu Məcəllənin normalarının tətbiq edilməsinin düzgünlüyünü yoxlayır. Birinci instansiya məhkəməsinin müəyyən etdiyi faktiki hallar apellyasiya məhkəməsi tərəfindən yalnız apellyasiya şikayəti və ya apellyasiya protestinin hüdudlarında yoxlanılır. Birinci instansiya məhkəməsinin cinayət qanunu və bu Məcəllənin normalarına əməl etməsi apellyasiya məhkəməsi tərəfindən apellyasiya şikayəti və ya apellyasiya protestinin dəlillərindən asılı olmayaraq yoxlanılır.

Bakı Apellyasiya Məhkəməsinin **cinayət kollegiyası** verilmiş apellyasiya şikayətin dəlillərini iş materialları ilə birlikdə əlaqəli şəkildə araşdıraraq və cinayət prosesinin iştirakçılarının fikirlərini dinləməklə hesab edir ki, **apellyasiya şikayəti** əsassız olduğundan təmin edilməməli və birinci instansiya məhkəməsinin 19 noyabr 2018-ci il tarixli **hökmü** dəyişdirilmədən saxlanılmalıdır.

Cinayət işinin **materiallarından** və məhkəmə iclaslarının **protokollarından** göründüyü kimi, məhkum **X.X.X** özünü cinayət əməlinin törədilməsində təqsirli bilməməsinə baxmayaraq, onun tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **234.4.3-cü maddəsi** ilə nəzərdə tutulmuş cinayətin törədilməsi özünün ibtidai istintaq dövründə verdiyi tam etirafedici ifadələri ilə yanaşı, istintaq və məhkəmədə dindirilmiş şahidlərin ifadələri ilə; məhkəmədə şahidlərlə onun arasında keçirilmiş çarpaz dindirmələr zamanı; baxış və götürmə, müayinə, axtarış və digər istintaq hərəkətlərinin protokolları ilə; məhkəmə-kimyəvi və məhkəmə-narkoloji ekspertizalarının rəyləri ilə, toplanmış və tədqiq olunmuş çoxsaylı digər mötəbər sübutlarla öz təsdiqini tapmışdır.

Belə ki, birinci instansiya məhkəməsində dindirilmiş **X.X.X** ifadəsində göstərmişdir ki, Gəncə şəhərində daimi qeydiyyatında olsa da, Bakı şəhərində müxtəlif tikintilərdə fərdi qaydada fəhləliklə məşqul olaraq, Bakı şəhəri Xutor qəsəbəsində kirayədə qalmışdır. 17 mart 2018-ci ildə hava yağışlı olduğundan Binəqədi rayonunda olan əvvəldən tanıdığı “Göygöl” kafesinə gəlmiş,

həmin vaxt “N.N.N” ləqəbli N.N.N adlı şəxs də orada olmuş, onunla ilk dəfə orada tanış olmuş, N.N.N nə işlə məşğul olduğunu soruşduqda müxtəlif tikintilərdə fəhlə işlədiyini bildirmişdir. N.N.N ləqəbli N.N.N ona Qax rayonunda iş olması və işləməyə getməsini təklif etdikdə razılaşmış və bu təklifdən sonra həmin axşam axşam hər ikisi birlikdə avtovaqzala gəlib Şəkiyə gedərək saat 22.30-da Şəkiyə çatmışlar. N.N.N adlı şəxs onu orada qoyub telefonun zaryatkaya qoymaq üçün oradan uzaqlaşıb harasa getmiş, bir neçə dəqiqədən sonra qayıtmış, sonra N.N.N adlı şəxs yenə harasa getmiş, onu iki saata kimi gözləmiş, gəlmədiyini görüb onu axtarmağa başlamış və N.N.N adlı şəxsin yaxınlıqdakı ayaqyolunda kiminləsə telefonla danışdığını görmüşdür. N.N.N adlı şəxs ona tapacağı evin sahibinin Bakıda olduğunu və sabah Bakıdan qayıdacağını deyib axşamı onun evində qalmasını təklif etmişdir. Bundan təxminən bir saat sonra N.N.N təklif etmişdir ki, birlikdə onların evinə gedib zərurət olduğundan oradan pal-paltar olan çantanı götürüb Bakıya apararaq evlərinə təhvil verib səhərisi yenidən Qax rayonuna qayıtsınlar. Onlar birlikdə N.N.N adlı şəxsin dediyi evə gəlmişlər, həyətdə gözləmiş, N.N.N isə evə keçərək böyük bir bağlama gətirib maşına qoymuşdur. Bu zaman taksi sürücüsü bağlamanın nədən ibarət olduğunu soruşduqda N.N.N adlı şəxs ona bağlamanın pal-paltar olduğunu bildirmişdir. Elə həmin gecə vaxtı birlikdə taksi maşını ilə Bakı şəhəri Bayıl qəsəbəsinə gəlmişlər. Həmin taksi sürücüsünü əvvəllər tanımamış, səhərə yaxın Bayıl qəsəbəsinə çatmışlar. N.N.N ona maşından düşməsini təklif etmiş, özü isə telefonla danışa-danışa oradan uzaqlaşmış, bir neçə dəqiqədən sonra polis əməkdaşları ona yaxınlaşmış və onu sorğu-suala tutmuş, ondan nə məqsədlə burada dayanmasını soruşduqda onlara adam gözlədiyini bildirmişdir. Polislər ondan maşındakı bağlamanın içərisində nə olduğunu soruşduqda, cavabında həmin bağlamanın N.N.N adlı şəxsin və içərisində pal-paltar olduğunu demiş, artıq taksi sürücüsü onların yanında olmamışdır. Polislərdən kimsə bağlamanın içərisində narkotika olduğunu söyləyib və onu həmin bağlama ilə birlikdə polis idarəsinə aparmışlar. Bir həftə sonra polislər onu Şəkiyə və Qaxa hadisə yerinə aparmış, orada onun şəkllərini çəkib protokol tərtib etmişlər. N.N.N ləqəbli N.N.N adlı şəxsin adını və həmin bağlamanın məhz N.N.Na aid olduğunu bir daha polislərə desə də, heç kim ona əhəmiyyət verməmiş, bundan sonra polislər oradan bir neçə kol da çıxarıb maşına qoymuş və birlikdə yenidən Bakı şəhərinə polis idarəsinə qayıtmışlar. Sənədlərə imza etməsini təklif etsələr də imza etməmişdir. Həmin narkotik vasitənin ona heç bir aidiyyəti yoxdur, “N.N.N” ləqəbli N.N.N adlı şəxsə məxsusdur, həmin bağlamanı kimə və nə məqsədlə verəcəyindən xəbəri olmamış və N.N.N bu məqsədlə ona pul verməmiş, faktiki onu aldadaraq bəlaya salmışdır.

Birinci instansiya məhkəməsi **X.X.Xnun** həmin ifadəsinə hüquqi qiymət verərək, onun həmin ifadələrini inandırıcı hesab etməmiş, məhkəmə istintaqı zamanı tədqiq olunmuş və araşdırılmış sübutlarla uyğunluq təşkil etmədiyindən, inandırıcı hesab etməmişdir.

İbtidai istintaq zamanı ilkin olaraq dindirilmiş və məhkəmədə ifadəsi tədqiq edilmiş **X.X.Xnun** ifadəsindən görünür ki, **X.X.X** həmin ifadəsində özünü Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə təqsirli bilib bildirmişdir ki, narkomaniyadan əzab çəkir, Gəncə şəhərində daimi qeydiyyatında olsa da, Bakı şəhərində müxtəlif tikintilərdə fərdi qaydada fəhləliklə məşqul olaraq Bakı şəhəri Xutor qəsəbəsində kirayənişin qalmış, 1-2 gün əvvəl şəxsi işləri ilə bağlı avtobusla Şəki rayonuna gedərkən yolda təsadüfən N.N.N adlı şəxslə tanış olmuş, söhbət vaxtı “N.N.N” da narkotik vasitələrdən istifadə etdiyini bildirmiş, ona görə də söhbət əsnasında N.N.N onda satdıq narkotik vasitə olduğunu və istəsə ona sata biləcəyini demiş, N.N.Ndan narkotik vasitəni alaraq həm özü istifadə edəcəyini və maddi imkanı ilə əlaqədar sataraq pul qazanmasını düşünüb N.N.Ndan satdığı narkotik vasitəni almaq barədə onunla razılaşmış, N.N.N onda 10 kq-dan artıq qurudulmuş marixuana olmasını və 500 manata sata biləcəyini deyəndə, deyilən çəkidə narkotik vasitəni almaq üçün 500 manatı olmadığı və üzərində yalnız 200 manat olmasını deyəndə razılaşmışlar ki, 200 manat verib həmin narkotik vasitəni götürsün, qalan 300 manatı 13 gün sonra Bakı şəhərində kirayəşin yaşadığı Xutor qəsəbəsində görüşüb versin. Şəki rayonuna çatdıqdan sonra N.N.N ona avtovağzalın yanında gözləməsini deyib çıxıb getmiş, təxminən 20-30 dəqiqə sonra N.N.N əlində böyük «bazar» çantası ilə qayıtmış, N.N.Nın gətirdiyi çantaya baxdıqda içərisində həqiqətən də qurudulmuş marixuana olduğunu görmüş və orada 200 manatı N.N.Na verib narkotik vasitə ilə dolu çantanı ondan götürmüş, Şəkidə işlərini gördükdən sonra 18 mart 2018-ci ildə saat 01 radələrində Şəkidən gələn tanımadığı yol maşını ilə Bakı şəhərinə gəlib Səbail rayonu ərazisində avtomaşından düşdükdən sonra piyada taksi axtara-axtara gedərkən, «Bayıl Arena» stadionun yaxınlığında Nestarov küçəsi 5 saylı ünvanın qarşısında polis əməkdaşları ona yaxınlaşaraq özlərini təqdim edib polis əməkdaşları olmaları və onun narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli olduğunu deyib rayon polis idarəsinə dəvət etmişlər. Polis idarəsində vəkil Səyyarə Əliyeva ona təqdim edilərək görüşmələri təmin edildikdən sonra dəvət olunmuş iki nəfər

hal şahidinin iştirakı ilə ona üzərində və ya əlində olan çantada hər-hansı qanunsuz əşya varsa, təqdim etməsini təklif etdikdə, üzərində heç bir qanunsuz əşya olmamasını, lakin əlindəki çantada narkotik vasitə qurudulmuş marixuana olmasını deyib çantanı təqdim etmiş, həmin çantaya baxış keçirilmiş, çanta qablaşdırılıb üzəri iştirakçılar tərəfindən, o cümlədən özü imzalayandan sonra polis əməkdaşları tərəfindən üzərinə baxış keçirilmiş və heç bir qanunsuz əşya müəyyən edilməmişdir. Protokol tərtib edilmiş və protokolun doğruluğunu öz imzası ilə təsdiq etmişdir (i.v. 64-66).

İbtidai istintaq dövründə təkrarən təqsirləndirilən şəxs qismində dindirilmiş və məhkəmədə ifadəsi tədqiq edilmiş **X.X.X** verdiyi ifadələrini təsdiq edərək bildirmişdir ki, narkotik vasitə aldığı N.N.N ləqəbli şəxs onu Şəki rayonu ərazisində, yol kənarında olan əraziyə aparıb orada yetişən narkotik vasitə kollarını göstərib ona satdığı narkotik vasitəni həmin tarladan yığıb qurutduğunu və sonradan satdığını demiş, narkotik vasitə kollarının yetişdiyi yeri əyani olaraq göstərə bilər, həmin yer Qax rayonu istiqamətdə gedən avtomobil yolunun sol kənarında yerləşir, ifadəsi hadisə yerində yoxlanılarkən N.N.N adlı şəxsin onu apararaq göstərdiyi yerdə olan kollar həqiqətən narkotik vasitə kollarıdır. İlkin istintaq zamanı N.N.Nın onu apardığı yerin ünvanını dəqiq xatırlamadığına və debillik dərəcəsində ruhi xəstə olduğundan yadından çıxdığına görə bildirməmiş hadisə yerində olarkən N.N.Nın ona narkotik vasitə satdığı yeri görüb satdığı narkotik vasitəni yığdığı və ona göstərdiyi yeri yadına salmış və hazırda da doğru ifadə verir (i.v. 128-129).

Birinci instansiya məhkəməsində dindirilmiş şahid **N.N.N** öz ifadəsində göstərmişdir ki, sonradan adı ona məlum olan X.X.Xnu əvvəllər tanımamış, onunla düşmənçiliyi, ədavəti və qohumluğu olmamışdır. 18 mart 2018-ci ildə saat 07 radələrində Səbail rayon polis idarəsinin inzibati binasının qarşısından keçərkən mülki geyimdə şəxslər ona yaxınlaşaraq rayon polis idarəsinin əməkdaşları olduqlarını deyib polis idarəsinə gətirilmiş bir nəfər şəxsin üzərinə keçiriləcək baxışda hal şahidi qismində iştirak etməsini təklif etdikdə, razılaşmış və dəvət olunmuş digər hal şahidi ilə birlikdə polis idarəsinin xidməti otaqların birində onlara hüquq və vəzifələri izah edildikdən sonra otaqda olan və adını həmin zaman bildiyi və əvvəllər tanımadığı X.X.Xun narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli olması izah olunaraq onun üzərində və əlindəki çantasına baxış keçiriləcəyi bildirilmiş, daha sonra polis əməkdaşları X.X.Xa üzərində və çantasında hər hansı qanunsuz əşya olub-olmaması və əgər varsa təqdim etməsi təklif edildikdə X.X.X üzərində heç bir qanunsuz əşya olmadığını, lakin əlində olan çantada narkotik vasitə qurudulmuş marixuana olmasını, həmin narkotik vasitəni satmaq niyyəti ilə Şəki rayonunda N.N.N adlı şəxslə 500 manata razılaşaraq, 200 manatını ödəmiş və qalan 300 manatını 13 gün sonra kirayənişin yaşadığı Xutor qəsəbəsində görüşüb vermək şərti ilə aldığını və 18 mart 2018-ci ildə Səbail rayonu «Bayıl Arena» stadionun yaxınlığında Nestarov küçəsi 5 saylı ünvanın qarşısında polis əməkdaşları tərəfindən saxlanıldığını bildirmişdir. Polis əməkdaşları onun çantasına baxış keçirmiş və baxış zamanı çantada qurudulmuş ota bənzər, spesifik iyə malik kütlə olması müəyyən edilmişdir. Bundan sonra polis əməkdaşları çanta qablaşdıraraq üzəri iştirakçılar tərəfindən imzalandıqdan sonra götürülmüşdür. Daha sonra polis əməkdaşları X.X.Xun üzərinə baxış keçirilmiş, lakin qanunsuz əşya müəyyən edilməmişdir. Polis əməkdaşları protokol tərtib etmiş, digər iştirakçılar kimi protokolun doğruluğunu öz imzası ilə təsdiq etmişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş **Amus-Təbrizi Vüsal Vaqif oğlu** eyni məzmunlu ifadə verərək, öz ifadəsində məhkəmədə dindirilmiş şahid **N.N.Nnun** ifadəsində göstərilən xüsusatları bir daha olduğu kimi təsdiq etmişdir.

Birinci instansiya məhkəməsində dindirilmiş şahid **N.N.N** ifadəsində göstərmişdir ki, Səbail rayon polis idarəsinin Narkotiklərlə mübarizə bölməsinin rəisi vəzifəsində işləməklə 18 mart 2018-ci il tarixdə Narkotiklərlə mübarizə bölməsinə «X.X.X» adlı şəxsin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşqul olması barədə məlumat daxil olmuş, həmin məlumatın yoxlanılması üçün rəhbərliyin göstərişi əsasında əməliyyat qrupu yaradılmış, əməliyyat qrupunun iştirakçılarına davranış xətti izah edilmiş, Narkotik vasitənin qanunsuz dövriyyəsi ilə məşğul olan adı çəkilən X.X.X adlı şəxsin Bakı şəhəri Səbail rayonu Bayıl qəsəbəsi ərazisində «Bayıl Arena» stadionunun yaxınlığında olması müəyyən edildikdən sonra həmin gün saat 06 radələrində Bayıl Arena stadionu yaxınlığında Nesterov küçəsi 5 saylı ünvanda X.X.X adlı şəxsin zahiri əlamətlərinə uyğun olan bir nəfərin əlində naxışlı sintetik çanta ilə dayandığını və çantanın içində yükün olması aydın görünmüş, yaxınlaşıb özlərini təqdim edib Səbail rayon polis idarəsi Narkotiklərlə mübarizə bölməsinin əməkdaşları olduqlarını bildirərək onun kimliyini soruşmuş, həmin şəxs X.X.X olduğunu bildirmişdir. Ona narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli olduğu izah edilməklə barəsində əməliyyat tədbiri keçirilməsi qərarı ilə tanış edildikdən sonra üzərində və çantasında narkotik vasitə və sair qanunsuz predmet olub-olmamasını soruşduqda bildirmişdir ki, «üzərində

heç bir qanunsuz əşya yoxdur, lakin əlində olan çantasında narkotik vasitə qurudulmuş marixuana vardır». X.X.Xun saxlanıldığı «Bayıl Arena» stadionunun yanında baxış keçirib protokol tərtib etmək üçün əlverişli yer olmadığından, X.X.Xu əlindəki çantası ilə birlikdə Səbail rayon polis idarəsinin inzibati binasına onlarla birlikdə getməsini təklif etdikdə razılaşmış və Səbail rayon polis idarəsinin inzibati binasına gəlmişlər, iki nəfər hal şahidinin iştirakları ilə üzərinə və əlində olan çantasına baxış keçirilmiş, üzərindən qanunsuz heç nə aşkar edilməmiş, əlindəki çantasında narkotik vasitə qurudulmuş marixuana aşkar olunmuş, X.X.X bildirmişdir ki, həmin narkotik vasitəni 2 gün əvvəl Şəki rayonuna gedərkən yolda təsadüfən tanış olduğu N.N.N adlı şəxsdən 500 manata almaq barədə danışmış, danışılmış pulun 200 manatını N.N.Na verdiyini, qalan 300 manatı isə təxminən 13 gün sonra kirayənişin qaldığı Bakı şəhəri Xutor qəsəbəsində olan evdə ödəyəcəyini bildirmişdir Özü narkotik vasitə aludəçisidir, narkotik vasitənin bir qismini özü qəbul etməsi, digər qismini isə öz maddi vəziyyətini yaxşılaşdırmaq üçün satıb pul əldə etmək məqsədi ilə almışdır. X.X.X onlar tərəfindən saxlanılarkən və onun üzərinə, çantasına hal şahidlərinin, vəkilin iştirakları ilə baxış keçirilərkən, ona qarşı hər hansı formada fiziki, psixi təziq göstərilməmiş, sərbəst olaraq özü çantasında narkotik vasitə olmasını, onu Şəkidən N.N.N adlı şəxsdən 500 manata almasını bildirərək həmin narkotik vasitəni könüllü olarq təqdim etmişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş N.N.N**, N.N.N** və **N.N.N** eyni məzmunlu ifadələr verərək, öz ifadələrində **X.X.X** əlində olan çantanın içərisində narkotik vasitə qurudulmuş marixuana aşkar edib götürdüklərini qeyd etməklə şahid **N.N.N** ifadəsində göstərilən xüsusatarı özlərinə aid olan hissələrdə bir daha təsdiq etmişlər.

Birinci instansiya məhkəməsində əlavə şahid qismində dindirilmiş **N.N.N** ifadəsində göstərmişdir ki, Binəqədi rayon ərazisində yerləşən «Göygöl» kafesini işlədir, kafe çox kiçik bir sahədən ibarətdir. X.X.Xu bir müddət kimsəsiz bir adam kimi tanıyır, işlərini gördürüb uşaq kimi hər yerə buyurmuş, bunun müqabilində X.X.Xa yemək vermiş və çox vaxtlar kafedə yanında qalmasına icazə vermiş, Novruz bayramından 1-2 gün əvvəl X.X.X kafeyə gəlmiş və yanında bir nəfər sonra adının N.N.N olduğunu bildiyi şəxslə söhbət etdiyini görmüş, onlara çay vermiş, X.X.X ona demişdirki, Qax rayonuna işləməyə gedir. X.X.Xə xeyir dua vermiş və onlar çıxıb getmişlər. Bir müddət sonra X.X.Xin polis tərəfindən saxlanıldığını eşitmişdir.

Birinci instansiya məhkəməsində tədqiq edilmiş İfadənin hadisə yerində yoxlanması barədə **protokoldan** görünür ki, **X.X.Xnun** ifadəsi hadisə yerində yoxlanarkən Şəki şəhərinin mərkəzində olan avtovağzalı göstərib bildirmişdir ki, N.N.N ləqəbi ilə özünü təqdim edən şəxs naxışlı çantaya qablaşdırılmış külli miqdarda narkotik vasitə-qurudulmuş marixuananı ona həmin yerdə vermiş və əvvəldən razılaşdıqları kimi aldığı narkotik vasitənin əvəzində ilk olaraq 200 manatı ondan orada almış və qalan 300 manatı 13 gündən sonra onun kirayənişin qaldığı Bakı şəhəri Xutor qəsəbəsində verməli idi. Narkotik vasitə aldığı N.N.N ləqəbli şəxs onu Şəki rayonu ərazisində yol kənarında olan əraziyə aparıb orada yetişən narkotik vasitə kollarını göstərib satdığı narkotik vasitəni həmin tarladan yığıb qurutduğunu və sonrada ona satdığını demiş və Qax rayonu ərazisinə aid olan «Qanlı Qobu» adlanan inzibati ərazi vahidində, avtomobil yolundan 200 m sol tərəfdə olan yeri göstərib bildirmişdir ki, narkotik vasitəni N.N.N adlı şəxs həmin ərazidən yığdığını ona bildirmişdir. Əraziyə Qax rayon polis şöbəsinin əməkdaşları da dəvət olunmuş, ərazidə qalan digər yabanı narkotik vasitə-çətənə kolları yığılaraq odlanmaqla məhv edilmişdir (i.v. 122-127).

Birinci instansiya məhkəməsində tədqiq edilmiş **protokoldan** görünür ki, Qax rayon Bitki Mühafizə Mərkəzindən mütəxəssis qismində dəvət edilmiş baş aqronom X.X.X tərəfindən hadisə yerində aşkar edilmiş kollar barədə verdiyi **rəyə** əsasən, Qax rayonunun «Qanlı Qobu» ərazisində boş torpaq sahəsində aşkar edilmiş bitkilər narkotik tərkibli çətənə bitkiləridir, həmin bitkilər yabanı halda bitmiş və aqrotexniki xidmət göstərilməmiş, sayı 73 ədəd, boylarının uzunluğu 100-120 sm, ümumi çəkisi 4 kq təşkil edir və aşkar olunduğu ərazi təxminən 0,20 ha-dır.

Birinci instansiya məhkəməsində tədqiq edilmiş məhkəmə-bioloji ekspertizasının 13987 saylı 13 iyun 2018-ci il tarixli **rəyindən** görünür ki, tədqiqata təqdim olunmuş bir ədəd ağ rəngli sintetik torbada yaş vəziyyətdə ümumi sayı 73 ədəd, ümumi təmiz çəkisi 3215,0 qram bitki nümunələri əkilib-becərilməsi qadağan olunmuş narkotik təbiətli çətənə (kannabis) bitkiləridir. Aqronom-mütəxəssisin rəyinə görə həmin bitkilərə aqrotexniki qaydada qulluq göstərilməmiş, onlar yabanı halda bitmişdir. Həmin ağ rəngli sintetik torbada olan çətənə (kannabis) bitkiləri ilə X.X.Xndan götürülmüş naxışlı sintetik çantada olan marixuana tərkiblərinə görə eynidirlər.

Birinci instansiya məhkəməsində tdqiq edilmiş Məhkəmə-bioloji ekspertizasının 6977 saylı 18 mart 2018-ci il tarixli **rəyindən** görünür ki, **X.X.Xndan** götürülmüş təmiz çəkisi **12 kq 250,0**

**qram** təşkil edən bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə-**qurudulmuş marixuanadır**.

Birinci instansiya məhkəməsində tədqiq edilmiş məhkəmə-narkoloji ekspertizasının 628 saylı 18 aprel 2018-ci il tarixli **rəyindən** görünür ki, müayinə zamanı **X.X.Xnda** tiryək alkoloidlərini tərkibində saxlayan maddələrdən sui-istifadə edilməsi ilə nəticələnən narkoma- niya xəstəliyi aşkar olunduğundan, onun narkomaniyadan məcburi müalicəyə ehtiyacı vardır.

Birinci instansiya məhkəməsində tədqiq edilmiş ambulator komission məhkəmə-psixatrik ekspertizasının 944 nömrəli 12 iyun 2018-ci il tarixli **rəyindən** görünür ki, **X.X.Xnda** yüngül kəmağıllıq (debillik) dərəcəsində ağıl zəifliyi aşkar edilir. Bunu əqli zəifliyi ilə bağlı məktəbdə oxuya bilməməsi, Gəncə şəhər Səhiyyə idarəsinin Psixo-Nevroloji djispanserində 28 sentyabr 1982-ci ildən «Debillik dərəcəsində olan oliqofreniya» diaqonozu ilə qeydiyyatda olması və hazırkı müayinədə verilən suallara mahiyyətinə görə səthi, qısa cavablar verməsi, təfəkkürünün ardıcıllığı, bilik ehtiyatının ibtidai təhsil səviyyəsində olması, sadə, primitiv suallara cavab verə bilsə də, nisbətən mürəkkəb sualların əksər hissəsinə cavab verə bilməməsi və sair sübut edir. Lakin, onda aşkar olunan ağıl zəifliyi o dərəcədə ifadə olunmamışdır ki, ittiham olunan əməl dövründə öz hərəkətlərini dərk etmək və onları idarə etmək iqtidarından məhrum etsin. Həmin dövrdə öz hərəkətlərinin faktiki xarakteri və ictimai təhlükəliliyini dərk etmək, onları idarə etmək iqtidarında olmuş və ona ittiham olunan əməl barəsində **anlaqlı** hesab edilmişdir. Onun hərəkətləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **21** və **22-ci maddələrinin** təsiri altına düşmür. Hazırda da öz hərəkətlərini dərk etmək və onları idarə etmək iqtidarındadır, məcburi müalicəyə ehtiyacı yoxdur.

«Narkotik vasitələrin, psixotrop maddələr və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli Qanunun **10.0.11-ci maddəsinə** əsasən, «narkotik vasitələr və psixotrop maddələrin qanunsuz satılması-miqdarından asılı olmayaraq Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, ya digər şəxsi maraq məqsədilə yayılmasına yönəldilmiş hərəkətlərdir».

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun **04 mart 2011-ci il tarixli qərarının** 9-cu bəndində məhkəmələrə tövsiyə edilmişdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.2-ci maddəsinin dispozisiyasına görə narkotik vasitələri və ya psixotrop maddələri təkcə satma deyil, həm də onları satış məqsədilə qanunsuz olaraq əldə etmə, və ya saxlama, hazırlama və ya istehsal etmə, emal etmə, daşıma və göndərmə həmin maddə ilə cinayət məsuliyyətini yaratdığı üçün, yuxarıda göstərilən hərəkətlərin həmin maddələrin satış məqsədi ilə edilməsinin müəyyən olunması bu qəbildən olan işlərinin düzgün həll olunması üçün mühüm əhəmiyyət kəsb edir.

Həmin **Qərarda** göstərilmişdir ki, təqsirkarın narkotik vasitələri satmaq niyyətində olması müəyyən edilərkən, başqa sübutlarla və narkotik vasitələrin miqdarı ilə yanaşı, istehlakçı ilə onun əvvəlcədən razılıq əldə edilməsi, narkotik vasitənin çəkilib xırda bağlamalara bükülməsi, həmçinin onların hazırlanması üçün avadanlığın olması və işin digər halları nəzərə alınmalıdır.

Beləliklə də, cinayət işi üzrə toplanmış və birinci instansiya məhkəməsində tədqiq olunmuş çoxsaylı mötəbər sübutlarla müəyyən edilmişdir ki, **X.X.X** satış məqsədi ilə qanunsuz olaraq istintaqa məlum olmayan vaxtda və mənbədən təmiz çəkisi **12 kq 250 qram** təşkil edən bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda narkotik vasitə qurudulmuş marixuana əldə edib bir ədəd naxışlı sintetik çantada qablaşdıraraq əlində saxlamaqla Bakı şəhəri Səbail rayonu «Bayıl Arena» stadionunun yaxınlığında Nesterov küçəsi 05 saylı ünvanın qarşısına kimi daşımış, 18 mart 2018-ci ildə saat 06:15 radələrində həmin ünvanda Bakı şəhəri Səbail rayon polis idarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları tərəfindən saxlanılaraq rayon polis idarəsinin inzibati binasına gətirilmiş və saat 07:05 radələrində onun üzərinə və əşyalarına baxış keçirilərkən, əlində olan bir ədəd naxışlı sintetik çantada qablaşdırılmış halda xalis çəkisi **12 kq 250 qram** təşkil edən həmin bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış külli miqdarda narkotik vasitə qurudulmuş marixuana aşkar olunaraq götürülmüşdür.

Bu səbəbdən, **birinci instansiya məhkəməsi** toplanmış və məhkəmə baxış iclasında tətqiq edilmiş sübutlar toplusuna məcmuyu halında qiymət verməklə belə nəticəyə gəlmişdir ki, **X.X.Xnun** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **234.4.3-cü maddəsində** nəzərdə tutulmuş cinayəti törətməsi mötəbər sübutlarla öz təsdiqini tapmışdır.

**Birinci instansiya məhkəməsi** məhkum **X.X.Xnun** məhkəmə baxış iclasında aşkar olunmuş narkotik vasitənin N.N.N ləqəbli N.N.N adlı şəxsin olduğunu və narkotik vasitənin ona

heç bir aidiyyəti və N.N.N ləqəbli N.N.N adlı şəxsin həmin bağlamanı kimə və nə məqsədlə verəcəyindən xəbəri olmaması barədə verdiyi ifadəsinin toplanmış mötəbər sübutlarla tam təkzib edildiyini nəzərə alaraq hesab etmişdir ki, onun məhkəmədə verdiyi ifadəsi özünün ibtidai istintaq dövründə verdiyi ifadələri və cinayət işinin obyektiv halları ilə uyğunluq təşkil etmir.

Belə ki, məhkum **X.X.Xnun** ibtidai istintaqda verdiyi və məhkəmədə tədqiq edilmiş çoxsaylı ifadələrindən görünür ki, ibtidai istintaq dövründə başqa məzmunlu ifadələr verərək, ondan aşkar edilmiş narkotik vasitənin N.N.N ləqəbli N.N.N adlı şəxsdən bir hissəsini öz istifadəsi üçün, digər hissəsini satış məqsədi ilə 500 manata aldığını bildirmişdir. Bu səbəbdən, onun məhkəmədə verdiyi ifadəsi özünün ibtidai istintaqda verdiyi ifadələri ilə, dindirilmiş şahidlərin ifadələri ilə; ifadəsinin hadisə yerində yoxlanılması haqqında protokolla, baxış, müayinə və başqa istintaq hərəkətlərinin protokolları ilə; cinayət işi üzrə toplanmış və birinci instansiya məhkəməsində tədqiq edilmiş çoxsaylı digər mötəbər sübutlarla ziddiyyət təşkil etdiyindən, **məhkəmə kollegiyası** onun məhkəmədəki həmin ifadəsini inandırıcı və ittihamı təkzib edən sübut kimi qəbul etmir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin **90.7.10** və **91.5.10-cu maddələrinin** tələblərinə əsasən şübhəli və ya təqsirləndirilən şəxslər ifadə (izahat) vermək, özünə və ya yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ifadə (izahat) verməkdən imtina etmək, təqsirləndirilən şəxs onun haqqında irəli sürülən ittihamla əlaqədar ifadə (izahat) vermək və yaxud ifadə (izahat) verməkdən və sənədləri imzalamaqdan imtina etmək hüququna malikdir.

Göstərilən **normaların** tələbləri isə birbaşa ona dəlalət edir ki, təqsirləndirilən və ya şübhəli şəxs istədiyi kimi özünün müdafiəsini mümkün və zəruri hesab etdiyi **bütün vasitələrdən** istifadə edərək qurmaqla həyata keçirmək hüququna malikdir. Yəni ifadə vermək və ya ifadə verməkdən imtina etmək, hər hansı bir sənədə imza etmək və ya imza etməkdən imtina etmək onun **vəzifəsi** deyil, **hüququdur** və buna görə də məsuliyyət nəzərdə tutulmamışdır. Belə olan halda, məhkumun ibtidai istintaq dövründə və ya məhkəmədə hər hansı bir sənədi imzalamaqdan imtina etməsini yalnız onun müdafiə hüququ kimi qəbul olunaraq qiymətləndirməklə nəzərə alınmalıdır.

Bundan əlavə, adları sadalanan ibtidai istintaq dövründə və məhkəmə baxışında dindirilmiş **şahidlərin** hər biri öz ifadələrində və onların məhkum **X.X.X** ilə aralarında məhkəmədə çarpaz dindirmələr zamanı verdikləri ifadələrində onun narkotik vasitə qurudulmuş marixuananın özünün istifadəsi üçün və eyni zamanda satış məqsədi ilə əldə etməsi **faktını** öz ifadələrində bir daha təsdiq etməklə, onu cinayətin törədilməsində ifşa etmişlər.

Göstərilənlərə əsasən **məhkəmə kollegiyası** hesab edir ki, məhkum **X.X.Xnun** külli miqdarda narkotik vasitə qurudulmuş marixuananı satış məqsədi ilə əldə etməsi iş üzrə toplanmış və məhkəmədə tədqiq edilmiş mötəbər sübutlarla öz təsdiqini tapmışdır.

Beləliklə də, **məhkəmə kollegiyası** cinayət işi üzrə toplanmış mötəbər sübutlara hərtərəfli və obyektiv qiymət verməklə hesab edir ki, **X.X.Xnun** cinayəti törətməkdə təqsirli olması özünün ibtidai istintaq dövründə verdiyi çoxsaylı ifadələri ilə yanaşı; cinayət işinin faktiki hallarına uyğun şahid ifadələri ilə; toplanmış və birinci instansiya məhkəməsində tədqiq edilmiş obyektiv sübutların məcmusu ilə; ekspertizaların rəyləri ilə; maddi sübutlar və məhkəmədə elan olunaraq tədqiq edilmiş digər çoxsaylı mötəbər sübutlarla kifayət qədər öz təsdiqini tapmışdır.

Bundan başqa, **birinci instansiya məhkəməsi** maddi sübutlarla bağlı məsələni müzakirə etməklə əsaslı olaraq hesab etmişdir ki, Bakı şəhəri Səbail rayon polis idarəsində saxlanılan və **X.X.Xndan** aşkar edilmiş 12250,0 qram (12 kiloqram 250 qram) narkotik vasitə qurudulmuş marixuana və ifadəsinin hadisə yerində yoxlanılması zamanı yığılmış 3215,0 qram bitki mənşəli kütlə tərkibində çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə qurudulmuş marixuana maddi sübut qismində tanınmaqla, tədqiqata sərf edildikdən sonra qalan 12249,75 qram qurudulmuş marixuana və 3214,6 qram bitki mənşəli, ümumi sayı 73 ədəd əkilib-becərilməsi qadağan olunmuş narkotik təbiətli çətənə (kannabis) bitkilər məhv edilməlidir.

**Birinci instansiya məhkəməsi** cəza təyini məsələsini müzakirə edərkən hesab etmişdir ki, məhkum **X.X.X** cəzasını ağırlaşdıran və yüngülləşdirən hallar yoxdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **234.4.3-ci maddəsinin** sanksiyasında **beş ildən on iki ilədək müddətinə** azadlıqdan məhrum etmə cəzasının təyin olunması nəzərdə tutulduğu halda, birinci instansiya məhkəməsi tərəfindən maddənin sanksiyasının **orta həddində** azadlıqdan məhrum etmə cəzası təyin etməklə **ədalət və humanizm** prinsiplərinə əməl edilmişdir.

Göründüyü kimi, məhkum **X.X.Xnun** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin **234.4.3-cü maddəsi** ilə nəzərdə tutulan cinayət əməlini törətməsi toplanmış və birinci instansiya

məhkəməsində tədqiq edilmiş çoxsaylı mötəbər sübutlarla yanaşı, özünün ibtidai istintaq dövründə verdiyi etirafedici edici ifadələri ilə, həmçinin dindirilmiş şahidlərin ifadələri ilə öz təsdiqini tapdığından, **məhkəmə kollegiyası** hesab edir ki, bəraət verilməsi barədə onun özünun və müdafiəçisi tərəfindən verilmiş **apellyasiya şikayətlərində** irəli sürülən dəlillər cinayət işi üzrə toplanmış sübutlarla təkzib edildiyindən əsassız hesab olunmaqla təmin edilməməlidir.

Beləliklə də, **birinci instansiya məhkəməsi** məhkum **X.X.X** cəza təyin edərkən, cəza təyin etmənin ümumi prinsiplərini özündə əks etdirən Cinayət Məcəlləsinin 8.1, 9.2, 41.2 və 58.3-cü maddələrinin, «İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında» 03 sentyabr 1953-cü il tarixli Avropa Konvensiyasının **6-cı maddəsinin** tələblərini və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 25 iyun 2003-cü il tarixli 4 saylı **Qərarının** tövsiyyələrini nəzərə almaqla, onun şəxsiyyətini, törətdiyi cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, həmçinin məhkumun cəzasını yüngülləşdirən və ağırlaşdıran halları müzakirə etmişdir.

Yuxarıda göstərilənlərə əsasən, **məhkəmə kollegiyası** hökmün ləğv olunması və məhkum **X.X.X** barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin **234.4.3-cü maddəsi** ilə **bəraət** hökmü çıxarılması barədə özü və müdafiəçisi tərəfindən verilmiş **apellyasiya şikayətlərində** irəli sürülən dəlillər işin faktiki hallarına uyğun olmadığından, toplanmış və birinci instansiya məhkəməsində tətqiq edilmiş mötəbər sübutlarla təkzib edildiyini nəzərə alaraq hesab edir ki, özü və müdafiəçisi tərəfindən apellyasiya şikayətlərində irəli sürülən və toplanmış mötəbər sübutlara əsaslanmayan dəlillərə tənqidi yanaşılmalı və həmin dəlillər əsassız hesab edilməlidir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, **məhkəmə kollegiyası** hesab edir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 19 noyabr 2018-ci il tarixli **hökmünün** dəyişdirilməsi və ya ləğv edilməsi üçün heç bir əsas olmadığından, verilmiş **apellyasiya şikayətləri** təmin edilməməlidir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin **398.1.1-ci maddəsinin** tələblərini rəhbər tutaraq, **cinayət kollegiyası**,

**q ə r a r a   a l ı r:**

Məhkum **X.X.X** və onun **müdafiəçisi** tərəfindən verilmiş **apellyasiya şikayətləri** təmin edilməsin.

Bakı Ağır Cinayət Məhkəməsinin məhkum **X.X.X** barəsində olan **19 noyabr 2018-ci il tarixli hökmü** dəyişdirilmədən saxlanılsın.

Qərar **elan olunduğu** andan dərhal sonra qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin **410-cu maddəsində** göstərilən müddətdə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına **kassasiya şikayəti** və ya **kassasiya protesti** verilə bilər.